**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞƏKİ-ZAQATALA REGİONUNDA MÜƏSSİSƏLƏRİN ƏNƏNƏVİ VƏ PERSPEKTİV İXTİSASLAŞMA İSTİQAMƏTLƏRİ

İxtisas: 5311.01 – ”Müəssisələrin təşkili və idarə olunması”

Elm sahəsi: 53- İqtisad elmləri

İddiaçı: **Şöhrət İzzət qızı Əliyeva**

İqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı– 2025**

Dissertasiya işi Sumqayıt Dövlət Universiteti "Biznesin təşkili və menecment" (indiki "Biznesin idarə edilməsi") kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: İqtisad elmləri doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

Rəsmi opponentlər: İqtisad elmləri doktoru, professor
**İlham Alıcı oğlu Aslanzadə**

İqtisad elmləri namizədi, dosent
**Ələsgər Mehdi oğlu Əliyev**

İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərviz Səməd oğlu Həsənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.26 Birdəfəlik Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor
**Qorxmaz Cahangir oğlu İmanov**

Birgə Dissertasiya şurasının katibi: İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Səadət Cümşüd qızı Zeynalova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Səfər Həsən oğlu Pürhani**

İMZANI TƏSDİQ EDİRƏM
ADNSU-nun Elmi katibi

dos. Əliyev İ.N.

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlumdur ki, hazırda ölkəmizin hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlətin iqtisadi siyasətinin hədəfini sahibkarlığın artan sürətlə inkişafı və sosial-iqtisadi problemlərin həllində onun rolunun gücləndirilməsi, mövcud olan potensialdan düzgün və səmərəli istifadə təşkil edir. Məhz bu baxımdan regionlarda ənənəvi sahələrin inkişafına dəstəyi gücləndirilmək, potensial imkanlardan daha səmərəli istifadə, məşğulluğu təmin etmək, əhalinin marağını istehsala artırmaqla sosial rifahını daha da yaxşılaşdırmaq aktual məsələlərdəndir. Digər tərəfdən ixrac potensialının inkişaf etdirilməsi, yerli mallarının və xidmətlərinin xarici bazara çıxarılması, bunun üçün əlverişi şəraitin yaradılmasının prioritet kimi qoyulması regionların ənənəvi sahələrinin və perspektiv ixtisaslaşma istiqamətlərinin öyrənilməsi zərurətini ortaya qoyur.

Müasir dövrdə bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşması və onun dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiya olunması, hər şeydən öncə, ölkə iqtisadiyyatının, xüsusilə region müəssisələrinin inkişafını nəzərdə tutur. Ölkə prezidentinin təsdiq etdiyi Strateji Yol Xəritəsini bu sahədə həyata keçirilən əsas tədbir kimi göstərmək olar. Bu sənəd, makro (milli iqtisadiyyat) və mikro (sektorlar) səviyyədə kənd təsərrüfatı məhsullarının istehsalının, eləcə də emalının genişləndirilməsini, habelə istehsalın daha effektiv təşkilini, ixtisaslaşmış turizm fəaliyyətinin, logistika və ticarətin, peşə təhsili kompleksinin, maliyyə xidmətlərinin, telekommunikasiya və kommunal xidmətlərin qısa və ortamüddətli perspektivdə inkişafı yollarını müəyyənləşdirir. Milli iqtisadiyyatın əsasını ölkənin idxaldan asılı olmasını minimuma endirmək, ixrac potensiallı qeyri-neft məhsulları istehsalını yüksəltmək, istehlak malları istehsalı, ixtisaslaşmış turizmin inkişafı, iqtisadiyyatı əsasən qeyri-neft istiqamətində şaxələndirməklə regionda kənd təsərrüfatı, sənaye, turizm müəssisələrinin mövcud vəziyyətininin təhlilini, potensial imkanları, perspektiv ixtisaslaşma şərtlərini zəruri edir. Azərbaycanın 2026-cı ilədək olan dövrdə iqtisadi inkişaf istiqamətinə fikrimizcə biznes üçün əlverişli mühitin yaradılması, özəl sahələrə investisiya qoyuluşunun təşviqinin dövlət tərəfindən dəstəklənməsi, habelə ölkənin dünya

iqtisadiyyatına inteqrasiyası üçün rəqabətə dözümlü məhsul istehsalına nail olunmasını vurğulamaq olar.

Ərzaq təhlükəsizliyinin önəm verildiyi bir dövrdə regionlarda istehsal və emal müəssisələrinin fəaliyyətinin gücləndirilməsi müstəsna əhəmiyyət kəsb edir. Tələbatın yerli istehsal hesabına ödənilməsi üçün regionun mövcud resurslarından səmərəli istifadə edilməklə yanaşı, müəssisələrin inkişafi üçün potensial imkanlar elmi nəzəri cəhətdən əsaslandırılmalıdır.

Bazar iqtisadiyyatı şəraitində region müəssisələri yüksək standartlara malik məhsulların və xidmətlərin çeşidini artırmalı, son istehlakçıların məmnun edilməsi və analoji bazarlarda müəssisənin istehsal etdiyi məhsulların mövqeyinin möhkəmləndirilməsi təmin edilməlidir. Bunun üçün region müəssisələrinin ənənəvi və perspektiv ixtisaslaşması istiqamətində təkmilləşdirilmiş strategiyalara və mexanizmlərə ciddi zərurət vardır. Bütün bu amillər dissertasiya işinin mövzusunun aktuallığına dəlalət edir.

Şəki-Zaqatala iqtisadi rayonu ilə bağlı həm coğrafi baxımdan, həm də ümumi regional problemlər baxımından bir çox alimlər tərəfindən müxtəlif araşdırmalar aparılsa da, sosial-iqtisadi göstəricilərin təhlili əsasında iqtisadi potensialdan istifadə baxımından region səviyyəsində geniş tədqiqat aparılmamışdır. Bu cəhətdən bazar iqtisadiyyatı şəraitində Şəki-Zaqatala regionunda müəssisələrin ənənəvi və perspektiv ixtisaslaşma istiqamətlərinin təhlil olunması və onların inkişaf xüsusiyyətlərinin iqtisadi nöqteyi-nəzərincə araşdırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Dövlətin strateji planlarının əsasını təşkil edən regional inkişaf və qeyri-neft sektoru istehsalının genişləndirilməsi tədqiqatçıların da vəzifəsini və məsuliyyətini artırmış olur. Bu baxımdan mövcud problemlərin elmi cəhətdən araşdırılması və həlli respublikada A.A.Nadirov, Z.Ə.Səmədzadə, H.B.Rüstəmbəyov, İ.H.Qasımov, A.M.Məhərrəmov, N.Q.Qurbanov, C.P.Abbasov, Ə.X.Nuriyev, N.H.Əyyubov, T.H.Hüseynov, Ə.C.Qasımov, A.M.Hacızadə, N.H. Axundov, V.T.Nəzirova, N.Q.Hacıyeva, A.A.Qurbanzadə, S.V.Salahov kimi alimlər tərəfindən tədqiq olunmuşdur. Qeyd edilən məsələlər xarici iqtisadçılardan Q.Q.Fetisov, V.P.Orşenin, M.Ç.Çaquçiyev, P.V.Nazarov,

R.İ.Malikov, M.M.Sokolov, İ.Kılıncaslan, Z.Dinler, J.Taylor kimi alimlərin elmi əsərlərində araşdırılmışdır.

İqtisadi maraqların reallaşdırılması üçün regionun inkişaf problemlərinin öyrənilməsində alimlərin regional inkişafla bağlı fərqli nəzəriyyələrindən, metodologiyaları və yanaşmalarından istifadə edilmişdir. Bu əsərlərdə regional inkişaf problemləri əsasən coğrafi mövqe, təbii resurslar, regional istehsal, əmək bölgüsü, ərazi nəzəriyyələri əsasında işlənmiş və müqayisə edilmişdir.

Aparılan tədqiqatlarda adı çəkilən problemlər müxtəlif istiqamətlər üzrə öyrənilsə də, konkret olaraq Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən müəssisələrin inkişafının və prioritetlərinin hazırlanması baxımından geniş xarakter daşımamışdır. Bunu nəzərə alaraq müasir şəraitdə Şəki-Zaqatala regionunda müəssisələrin ənənəvi və perspektiv ixtisaslaşma istiqamətlərinin kompleks tədqiqatının aparılması labüdlüyü meydana çıxmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi rayonunun sənaye, kənd təsərrüfatı, turizm müəssisələri təşkil edir. Tədqiqatın predmetini region müəssisələrinin ixtisaslaşmasını təmin edən ehtiyatlar və onlardan səmərəli istifadə məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi regionda müəssisələrin mövcud vəziyyətini, ənənəvi və perspektiv ixtisaslaşma istiqamətlərini təhlil etməkdən və Şəki-Zaqatala iqtisadi rayonunda mövcud fəaliyyət növlərinin inkişafının sürətləndirilməsi və yeni təsərrüfatçılıq sahələrinin yaradılması istiqamətlərinə dair əsaslandırılmış praktik təkliflər hazırlamaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- ✓ Region iqtisadiyyatının kompleks inkişaf xüsusiyyətlərinin mahiyyətinin araşdırılması.
- ✓ Region müəssisələrinin sahə quruluşu və istehsal potensialının təhlili.
- ✓ Şəki-Zaqatala iqtisadi rayonunun sosial-iqtisadi inkişafının təhlil edilməsi.
- ✓ Şəki-Zaqatala iqtisadi rayonunda sənaye, kənd təsərrüfatı və turizm müəssisələrinin mövcud vəziyyətinin təhlil edilməsi.

✓ Region müəssisələrinin inkişafında dövlət tənzimləmə mexanizminin rolunun araşdırılması.

✓ Region müəssisələrinin ixtisaslaşmasında səmərəliliyin artırılması üzrə elmi-praktik istiqamətdə təkliflərin işlənib hazırlanması.

✓ İqtisadi rayonun mövcud potensialından daha səmərəli istifadənin, investisiya cəlbediciliynin yüksəldilməsi istiqamətlərində təkliflərin əsaslandırılması.

✓ Şəki-Zaqatala iqtisadi rayonunda müəssisənin ixtisaslaşmasında infrastrukturun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqat metodları:**

1. Tədqiqatın nəzəri-metodoloji əsasını regionların sosial-iqtisadi inkişafı ilə bağlı Azərbaycan Respubliksaı Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq normativ aktları, həmçinin bu sahədə yerli və xarici ölkələrin iqtisadçı alimlərinin tədqiqat işlərinin nəticələri təşkil edir.

2. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, həmçinin Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən yerli icra orqanları və sahibkarlıq subyektlərinin hesabatları təşkil edir. Tədqiqat zamanı internet resusrlarından da istifadə olunmuşdur.

3. Tədqiqatın yerinə yetirilməsi prosesində müqayisə, qruplaşdırma, qrafiki, məntiqi yanaşma, riyazi-statistik üsullardan və riyazi hesablamalardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** İşin elmi yeniliyini xarakterizə edən əsas nəticələrə uyğun olaraq, dissertasiya işinin aşağıdakı müddəaları müdafiəyə çıxarılır:

✓ Şəki-Zaqatala regionunun iqtisadiyyatının kompleks inkişaf xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi potensial və prioritet ixtisaslaşma sahələrinin tədqiq edilməsinin vacib şərtidir.

✓ Regionun iqtisadi inkişafı əhatəli şəkildə təhlil edilmiş, statistik baza əsasında hər bir sahənin ixtisaslaşma meylləri araşdırılmış və müəyyən edilmişdir ki, müəssisələrinin potensial və prioritet ixtisaslaşma sahələrinin inkişaf perspektivlərinə vəhdətdə baxılmalıdır.

✓ Sənaye müəssisələrinin fəaliyyətinin təhlili və istehsal potensialının qiymətləndirilməsi sənaye üzrə ixtisaslaşmanın nə dərəcədə perspektivli olduğunu göstərir.

✓ Regionda kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşma istiqamətlərinin müəyyən edilməsi üçün qiymətləndirmələrin aparılması vacib şərtlərdən biri hesab edilməlidir.

✓ Perspektiv ixtisaslaşma istiqamətinin qiymətləndirilməsi üçün dənli bitkilər istehsalı üzrə səbəb nəticə amillərinin asılılığı əsasında ekonometrik model qiymətləndirilərək müəyyən edilmişdir ki, bir sentnerdən gələn mənfəətə bir sentnerin satış qiymətinin və bir manatlıq məhsulun həcminin artması müsbət təsir edir və bir sentnerə əmək məsrəflərinin artması bir sentnerdən gələn mənfəəti azaldır. Yeni texnika, texnologiya tətbiq edilməsi, konsaltinq xidməti müəssisələri, biznes inkubatorları, lizinq xidməti müəssisələri yaradılması məqsədli hesab olunur.

✓ Turizm müəssisələrinin təhlili və onların regionun iqtisadi inkişafına təsiri, mövcud problemlər, perspektivli turizm potensialını üzə çıxartmaq üçün məqsədəuyğundur.

✓ İxtisaslaşmanın mövcud rəqabətə davamlılıq səviyyəsinin artırılması üçün texnoloji və təhsil intensivliyində dəyişiklik edilməsinə ehtiyac vardır. Regionda ağıllı ixtisaslaşma effektiv araşdırma və innovatik investisiyalar nöqteyi-nəzərindən vacibdir.

✓ Regionda əlverişli biznes mühitinin formalaşması region müəssisələrinin ixtisaslaşmasının zəruri şərti kimi çıxış edir. Uğurlu inkişaf prosesinin dövlət və özəl sektorun birgə səylərindən asılı olduğunu nəzərə alaraq regionun imkanlarına real şəkildə uyğun olan dəstəkləyici tədbirlərin davam etdirilməsi zəruridir.

**Tədqiqatın elmi yeniliyi:**

✓ Şəki-Zaqatala iqtisadi rayonu ilk dəfə olaraq geniş şəkildə müəssisələrin ixtisaslaşması istiqamətləri nöqteyi-nəzərincə araşdırılmışdır;

✓ Regionun iqtisadi inkişafını əks etdirən göstəricilər sistemi və ona təsir edən amillər işlənib hazırlanmışdır;

✓ İstehsal və sosial infrastrukturun inkişaf etdirilməsinin regionun investorlar üçün cəlbediciliyinin yüksəldilməsində rolu müəyyənləşdirilmişdir;

✓ İxrac potensiallı müəssisələrin sayının artmasının region iqtisadiyyatına əhəmiyyətli təsiri elmi cəhətdən əsaslandırılmış və bununla bağlı təkliflər hazırlanmışdır;

✓ Şəki-Zaqatala regionunda perspektiv ixtisaslaşma istiqamətinin qiymətləndirilməsi üçün dənli bitkilər istehsalı üzrə səbəb nəticə amillərinin asılılığı müəyyən edilmiş, ekonometrik model əsasında təkliflər irəli sürülmüşdür;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:**

✓ Nəzəri planda region müəssisələrinin ənənəvi və perspektiv ixtisaslaşma istiqamətində mühüm addım atılmışdır. Şəki-Zaqatala iqtisadi rayonunda müəssisələrdə istehsalın təkmilləşdirilməsi tədbirləri, perspektiv ixtisaslaşma istiqamətləri ilə bağlı nəzəri biliklərin xeyli artırılmasına nail olunmuşdur.

✓ Tədqiqatın praktiki əhəmiyyəti: Dissertasiya işində əldə olunmuş nəticələrdən region müəssisələrinin fəaliyyətində istifadə etmək məqsədəuyğundur.

**Aprobasiya və tətbiqi.** Tədqiqat işinin nəticələri, işlənib hazırlanan nəzəri-metodiki və əməli xarakterli tövsiyyələr: İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi yolları mövzusunda keçirilən respublika elmi - praktiki konfransında (Sumqayıt-2017); “Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransında (Bakı-2018); “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” adlı Beynəlxalq konfransda (Sumqayıt-2018); “Актуальные проблемы обеспечения экономической безопасности государства, регионов, предприятий”, Сборник научных статей III Международной научно-практической конференции (Уфа-2019), Рациональное природопользование: традиции и инновации, материалы III Международной конференции (Москва-2022) məruzə edilmişdir.

Tədqiqat işinin nəticələri, irəli sürülən nəzəri və təcrübi təkliflər 10-u məqalə (dördü xaricdə), 13-ü tezis (dördü xaricdə) olmaqla bir sıra nüfuzlu məcmuə və jurnallarda, həm respublikamızda, həm də xarici ölkələrdə keçirilmiş müxtəlif konfrans materiallarında dərc edilmişdir.

Tədqiqat nəticəsində işlənib hazırlanan təklif və tövsiyyələr istifadə üçün Şəki Regional Elmi Mərkəzə təqdim edilmiş və onlardan istifadə haqqında müvafiq arayış alınmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı** Dissertasiya Sumqayıt Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş (12758 işarə), 3 fəsil (I fəsil - 38237 işarə, II fəsil - 118729 işarə, III fəsil - 32660 işarə) , nəticə (9297 işarə), əlavə (2214 işarə), istifadə edilmiş 176 adda ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi 156 səhifədən, cədvəl, qrafik, şəkil, ədəbiyyat istisna olmaqla 211681 işarə sayından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN MÜNDƏRİCATI

**GİRİŞ**

**I FƏSİL. Şəki-Zaqatala regionunda müəssisələrin ixtisaslaşmasının ümumi xarakteristikası**

1.1. Regional ixtisaslaşma probleminə metodoloji yanaşmalar

1.2. Regionda əlverişli biznes mühitinin formalaşması

1.3. Şəki-Zaqatala regionunun iqtisadiyyatının kompleks inkişaf xüsusiyyətləri

**II FƏSİL. Şəki-Zaqatala regionunda müəssisələrin fəaliyyətinin təhlili və qiymətləndirilməsi**

2.1. Sənaye müəssisələrinin fəaliyyətinin təhlili və istehsal potensialı

2.2. Kənd təsərrüfatı məhsulları istehsal və emal edən müəssisələrin fəaliyyətinin qiymətləndirilməsi

2.3. Turizm müəssisələri və onların regionun iqtisadi inkişafına təsiri

**III FƏSİL. Şəki-Zaqatala regionu müəssisələrinin ixtisaslaşmasının perspektiv inkişaf istiqamətləri**

3.1. Regionda birgə müəssisələrin yaradılmasının üstünlükləri

3.2. Region müəssisələrinin ənənəvi və yeni ixtisaslaşma sahələrinin inkişaf perspektivləri

**NƏTİCƏ**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

**Əlavələr**

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

Giriş hissəsində tədqiqatın aktuallığı və öyrənilmə dərəcəsi, tədqiqatın predmeti və obyekti, məqsədləri və vəzifələri, müdafiəyə çıxarılan elmi müddəalar, elmi yenilik, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, həmçinin dissertasiya işinin əsas müddəalarının aprobasiyası təqdim olunur.

**"Şəki-Zaqatala regionunda müəssisələrin ixtisaslaşmasının ümumi xarakteristikası"** adlı birinci fəsildə regional ixtisaslaşma probleminə metodoloji yanaşmalar, regionda əlverişli biznes mühitinin formalaşması, regionun iqtisadiyyatının kompleks inkişaf xüsusiyyətləri araşdırılmışdır.

Azərbaycanda regionların tədqiqinə dair elmi mənbələrdə regional inkişaf problemləri ilə bağlı tədqiqatlar aparılmışdır. Ə.X.Nuriyev qeyd edir ki:[1] "*təbii sərvətləri, eləcə də uzunmüddətli formalaşmış istehsal təcrübəsi olan regionlarda istehsalın səmərəliliyinin təmin edilməsi üçün regionlarda strurktur siyasəti aparmaq lazımdır. Tətbiq edilən iqtisadi siyasətdə səmərəlilik faktorunun əsas götürülməsinə baxmayaraq, regionlarda mövcud potensialdan istifadədə yetərincə çatışmazlıqlar vardır. Onun təbirincə desək, həyata keçiriləcək siyasətdə regionun hər bir sahəsi digər sahəyə görə proporsional nisbət təşkil etməli, həmçinin infrastruktur inkişaf etdirilməlidir.*"

Q.Q.Fetisov regional marağı region ərazisində mövcud olan istehsal, əmək və təbii resurslarından səmərəli istifadəni müəyyənləşdirən amil kimi təqdim etmişdir.[2] Regionların artan sərbəstliyinə baxmayaraq, regional inkişafın müasir strategiyası dünya iqtisadi sisteminin və milli iqtisadiyyatın qarşılıqlı fəaliyyətinin bir sıra tələblərini nəzərə almalıdır. Belə ki, iqtisadçı R.V. Kryukovun hesab etdiyi kimi, "regional inkişafın dövlət strategiyasının mahiyyəti dövlətin, regionların, yerli özünüidarəetmə orqanlarının, mülkiyyətin müxtəlif subyektlərinin, milli-ərazi icmalarının və bütün vətəndaşların maraqlarının razılaşdırılmasına yönəlmiş fəaliyyətdən ibarətdir".[3] Bu

---

[1]*Nuriyev, Ə.X.Regional idarəetmənin əsasları / Ə.X. Nuriyev, - Bakı- 2007.- 428 s.*

[2]*Фетисов, Г.Г. Региональная экономика и управление / Г.Г. Фетисов, В.П. Орешин. -Учебник. - Москва: Инфра – М. - 2013, - 330 с.*

[3]*Крюков, Р.В. Государственное регулирование национальной экономики / Р.В. Крюков-Конспект лекции. -М: -Приор-издат. - 2005, -176 с.*

nöqteyi-nəzərdən region dünya bazarında milli maraqların ifadəçisi və müdafiəçisi olur. V.V. Kotilkonun fikrincə, əgər "regional siyasət dövlət siyasətinin ayrılmaz hissəsidirsə", o zaman onlar, ölkənin maraqlarını dəqiq ifadə edərək, dünya iqtisadiyyatında dəyişən şəraitə dəqiq adaptasiya olunmalıdır. Regional siyasət baş verən dəyişikliklərə sürətlə cavab verərək obyektiv iqtisadi qanunauyğunluqları nəzərə almalıdır. Məhz, "regionların müasir vəziyyətinin tədqiq olunmasına ümumi nəzəri yanaşma onların inkişafının ənənələrini və qanunauyğunluqlarını təyin etməyə, regionlarda əsas sosial-iqtisadi, təsisat, siyasi prosesləri öyrənməyə icazə verəcəkdir". [4]

Biznesin həyata keçirilməsi və investisiyaların cəlb edilməsi üçün şəraitin yaxşılaşdırılması regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsinin vacib şərtlərindəndir. Əslində, bu şəraitin yaxşılaşdırılması insanların və şirkətlərin ərazisində biznes layihələri inkişaf etdirmək istehlakçıların arzu və imkanlarının, şirkətlərin isə regionda biznez layihələrini inkişaf etdirmək, onlara öz əmək və resurslarını sərf etmək istəyinin artmasına gətirib çıxarır. Region nə qədər gəlirli və biznes layihələrinin inkişafı üçün uyğun olarsa, ərazi, oradakı əhali, infrastruktur, məskunlaşma mühiti, səmərəli əlaqələr bir o qədər yaxşı inkişaf edər. Yeni təşəbbüslərin dəstəklənməsində, mövcud müəssisələrin fəaliyyətində rast gəldikləri problemlərin həllində köməkliyin göstərilməsində biznes inkubatorların mühüm rolu vardır. Bu baxımdan Şəki-Zaqatala iqtisadi rayonunda da biznes inkubatorun yaradılması məqsədəuyğundur. Biznes İnkubatorların fəaliyyətinə müəssisəni zəruri avadanlıqlarla təchiz etmək, mühasibat uçotu, kargüzarlıq işlərinin aparılması, biznesin inkişafı üçün məsləhətlər, maliyyə vəsaitinə çıxış imkanlarının araşdırılması, biznesin aparılması və bu sahədə uğura nail olunması üçün müxtəlif təlimlərin, seminarların keçirməsi kimi xidmətlər daxildir.

Maliyyə vəsaitlərinə çıxış imkanlarının getdikcə artmasına baxmayaraq müəssisələrin üzləşdiyi problemlər içərisində maliyyə-kredit məsələləri hələ də aktual olaraq qalmaqdadır. Belə ki, müxtəlif banklar tərəfindən istehlak kreditlərinin faiz dərəcələri yüksək

---

[4] *Портер, М.Э. Конкуренция / М.Э. Портер, пер.с англ.- М: Вильямс, - 2000, - с.175*

olduğundan müəssisələrinin maliyyə imkanları buna yol vermir. Bu səbəbdən də dövlət tərəfindən ayrılmış güzəştli kreditlərdən istifadəyə üstünlük verirlər və əldə etməyə çalışırlar. Lakin burada faiz dərəcəsi aşağı olsa da (5%) maneə törədən digər amil likvid girov tələbinin olmasıdır. Xüsusilə kənd yerlərində likvid girov obyektlərinin olmaması səbəbli müvəkkil kredit təşkilatları tərəfindən şəhərdə yerləşən obyektlərin girov qoylulması şərti fermerlərin bu güzəştdən istifadə imkanlarını məhdudlaşdırmış olur. Buna görə də girov tələbinin qismən yumşaldılması güzəştli kreditlərdən daha geniş və səmərəli istifadəyə təkan verər. Bundan başqa banklarınn öz vəsaiti hesabına verdikləri kreditlər də stimullaşdırlmalıdır. Belə ki, regionda bank sistemi məlum səbəblərdən (devalvasiya) demək olar ki, tənəzzülə uğramış bir vəziyyətdədir. Müəssisələr tərəfindən maliyyə çıxışlarına əlçatanlığın təmin edilməsində bankların rolunu nəzərə alaraq onların fəaliyyəti dəstəklənməli, faiz dərəcələri aşağı salınmalıdır.

Azərbaycan Respublikasının zəngin bölgələrindən biri olan Şəki-Zaqatala iqtisadi rayonu Qafqaz dağlarının cənub-qərb hissəsində yerləşir, iqtisadi rayona 6 rayon – Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, habelə respublika tabeliyində olan Şəki şəhəri daxildir. Şəki-Zaqatala iqtisadi rayonunun iqtisadiyyatının özülünü kənd təsərrüfatı təşkil edir. İqtisadi rayonun sənayesi isə demək olar ki, zəif inkişaf edərək əsasən kənd təsərrüfatı məhsullarını emal edir. Azərbaycanda istehsal olunan tütünün 98%-i, taxılın 16%-i, baramanın 33%-i, yaşıl çay yarpağının 5%-i bu rayonda becərilir.




**Qrafik 1. Şəki-Zaqatala iqtisadi rayonu üzrə əsas bitkilik məhsullarının əkini və istehsalı[5]**

5 *http://.www.stat.gov.az əsassında müəllif tərəfindən hazırlanmışdır.*

Regionun iqtisadiyyatı əsasən kənd təsərrüfatı məhsulları istehsalı üzrə daha çox ixtisaslaşmışdır ki, onun da əsasını demək olar ki, taxılçılıq təşkil edir (Qrafik 1.). İqtisadi rayon taxıl istehsalı üzrə respublikanın əsas mərkəzi olmaqla, hazırda 65 iri taxılçılıq təsərrüfatları fəaliyyət göstərir.

Taxılçılıq təsərrüfatlarında idarəedicilərin yaşı və təhsil vəziyyəti kənd təsəsrrüfatı yeniliklərini mənimsəyərək tətbiqinə və idarəçilik uğuruna təsir edən amilərdəndir. İdarəçilərin təhsil səviyyəsinin yüksək olması və yaşının gəncliyi klassik üsul və davranışlardan fərqli olaraq dəyişən və təkmilləşən istehsal metodlarını tətbiq etməyə imkan yaradacaqdır. Halbuki yaşlı və təhsil səviyyəsi aşağı olan idarəçilər ənənəvi yanaşma tətbiqi ilə risk almaqdan uzaq bir fəaliyyət sərgiləməkdədir.

İqtisadi rayonda müəssisələrin ənənəvi olaraq kənd təsərrüfatı, emal sənayesi və turizm üzrə ixtisaslaşmasına baxmayaraq, sürətli iqtisadi inkişafa mane olan bir sıra problemlərlə üzləşirlər ki, dissertasiya işində həmin problemlər tədqiq edilmişdir. Aparılan araşdırmalar, işsizliyin azaldılmasına və regional bərabərsizliklərin aradan qaldırılmasına gətirib çıxaran davamlı iqtisadi inkişaf yaratmaq üçün ən böyük potensiala sahib olan prioritet sahələrin və tədbirlərin müəyyən edilməsinə yönəldilmişdir.

**“Şəki-Zaqatala regionunda müəssisələrin fəaliyyətinin təhlili və qiymətləndirilməsi” adlı** ikinci fəsildə sənaye müəssisələrinin fəaliyyətinin təhlili və istehsal potensialı araşdırılmış, kənd təsərrüfatı məhsulları istehsal və emal edən müəssisələrin fəaliyyəti qiymətləndirilmiş, turizm müəssisələri və onların regionun iqtisadi inkişafına təsiri təhlil olunmuşdur.

Regionda son 5 il ərzində istehsal edilmiş sənaye məhsulunun həcmi qrafik 2-də göstərilmişdir ki, bu da ümumi məhsul buraxılışının 23%-ni (2023-cü il) təşkil edir. Sənayedə məhsul buraxılışı 2022-ci illə müqayisədə 12%, 2019-cu illə müqayisədə isə 31% artmışdır. Son illərdə müşahidə edilən əhəmiyyətli dərəcədə artımın səbəbi xüsusilə fındıq emalı müəssisələrində mövcud tələbata uyğun olaraq məhsul istehsalının artması, həmçinin qida məhsulları istehsalı ilə məşğul olan ev təsərrüfatlarının fəaliyyətinin genişlənməsi olmuşdur.

Sənaye müəssisələrinin fəaliyyətlərinin araşdırılması göstərir ki, onlar əsasən kənd təsərrüfatı emalı ilə məşğul olan kiçik müəssisələr kateqoriyasına daxildir.




**Qrafik 2. İqtisadi rayonda 2019-2023-cü illər ərzində istehsal edilmiş sənaye məhsulu, min manatla[6]**

İqtisadi rayon ölkədə xüsusilə daha çox qoz, fındıq, eləcə də şabalıd istehsalı ilə də fərqlənərək demək olar ki, bu cür meyvələrin 95 faizdən çoxu məhz Şəki-Zaqatala iqtisadi rayonunun payına düşür. Hazırda regionda 57237,2 hektar sahədə fındıq bağı vardır ki, bundan 56579,9 hektarı məhsuldar hesab olunur (01.01.2024). Zaqatala fındığı yüksək keyfiyyətliliyi ilə seçilir və buna görə də xarici bazarlarda bu məhsula olan tələbat ildən-ilə artır. Burada fındıq hər hansı bir kimyəvi maddələr istifadə olunmadan yetişdirildiyindən ekoloji cəhətdən təmiz məhsul sayılır. Fındığın tərkibi yüksək faizli zülal, yağlar, karbohidratlar və yüksək enerjili qiymətə malikdir. Bu sahənin emalı ilə regionda 20-yə yaxın müəssisə məşğul olur.

[6] <u>https://www.stat.gov.az/source/regions/</u> *əsasən müəllif tərəfindən tərtib olunmuşdur.*

**Cədvəl 1.**

## "Zoom Nuts" MMC-nin 2019-2023-cü illər üzrə əsas iqtisadi göstəriciləri, manatla[7]

| Göstəricinin adı | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| Gəlirlər | | | | | |
| Malların satışı, işlərin görülməsi, xidmətlərin göstərilməsindən gəlirlər(qaytarılan mallar və ticarət güzəştləri nəzərə alınmaqla,ƏDV, aksiz vergisi çıxılmaqla) | 748626594 | 8104613,24 | 7896969,40 | 5037859,16 | 6989309,00 |
| Sair əməliyyat gəlirləri | 18089546 | 315504,33 | - | - | - |
| Dövlət büdcəsindən subsidiyalar | 18089546 | 315504,33 | - | - | - |
| Əməliyyat gəliri üzrə yekun | 766716140 | 8420117,57 | 7896969,40 | 5037859,16 | 6989309,00 |
| Gəlirlərin yekunu | 766716140 | 8420117,57 | 7896969,40 | 5037859,16 | 6989309,00 |
| Xərclər | | | | | |
| Xammal və material xərcləri-cəmi | 6681359,80 | 7165664,55 | 6556104,00 | 3568230,69 | 1951521,91 |
| Yanacaq xərcləri-cəmi | 9025,44 | 6355,95 | 10719,78 | 6890,17 | 9237,32 |
| Neft məhsulları | 9025,44 | 6355,95 | 10719,78 | 6890,17 | 9237,32 |
| Elektrik enerjisi xərcləri | 8906,74 | 6965,23 | 11972,58 | 11015,66 | 3751,09 |
| Yüklərin daşınmasına görə kənar təşkilatların xidmətlərinin haqqının ödənilməsi xərcləri | 143446,20 | 190651,60 | 201297,20 | 204449,43 | 341542,00 |
| İcarə ödənişləri-cəmi | 21750,00 | 21150,00 | 21150,00 | 19950,00 | 15387,50 |
| Bank xidməti xərcləri | 30483,55 | 25739,88 | 39125,87 | 9850,46 | 8676,51 |

[7] *"Zoom Nuts" MMC-dən əldə edilən materiallar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

**Cədvəl 1-in ardı**

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| Sığorta haqları cəmi | 2553,49 | 2074,61 | 1791,19 | 1386,71 | 3614,65 |
| Əmək haqqı xərcləri | 152978,02 | 164009,34 | 184720,22 | 125708,57 | 33048,43 |
| Sosial sığorta ayırmaları | 29620,67 | 31870,22 | 37729,26 | 26831,98 | 1577,59 |
| Amortizasiya | 9563,00 | 12268,00 | 10292,00 | 8757,00 | 7617,07 |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 86286,13 | 77578,40 | 77157,80 | 28906,04 | 14320,00 |
| Sair əməliyyat xərcləri-cəmi | 100620,24 | 109098,94 | 123201,32 | 160122,45 | 152355,83 |
| Əməliyyat xərcləri üzrə yekun | 7276593,28 | 7813426,72 | 7714161,22 | 4834169,16 | 6346649,90 |
| Əməliyyat mənfəəti (zərəri (-) | 390568,12 | 606690,85 | 182808,18 | 203690,00 | 642659,10 |

Sənaye müəssisələrinin təhlilini apardığımız zaman belə qənaətə gəlmək olar ki, iqtisadi rayonun fındıq istehsalında böyük təcrübəyə malik olması, həmçinin ölkəmizin fındıq istehsalı və ixracı üzrə dünyada ən yaxşı yerlərdən birini tutması, bu sahənin daha perspektivli olmasını sübut edir. Digər tərəfdən fındıq istehsalının daha sərfəli olması səbəbli bu sahənin istehsalına xüsusi diqqət yetirilir. Belə ki, fındıq ləpəsi istehsalı ilə məşğul olan "Zoom Nuts" MMC-nin iqtisadi göstəriciləri əsasında onun fəaliyyətinin səmərəliliyini qiymətləndirək. Məlum olduğu kimi səmərəlilik əmsalı istehsalının nəticələrinin xərclərə nisbəti ilə müəyyən edilir. "Zoom Nuts" MMC-nin 2023-cü ildə səmərəlilik əmsalı əvvəlki illə müqayisədə 2 dəfədən çox, müəssisənin gəlirləri isə 38,7% artmışdır.

Region müəssisələrinin pesrpektiv fəaliyyət sahəsi olan fındıqçılıqda bir sıra problemlər mövcuddur. Ərzaq təhlükəsizliyi baxımından şəhadətnamə verilmiş məhsulların olmaması, habelə beynəlxalq standartlara və tələblərə cavab verməməsi səbəbindən Azərbaycandan ixrac olunan fındıq xarici bazarlarda rəqabət qabiliyyətini itirir. Belə ki, müəssisələrdə köhnəlmiş texnika və texnologiyadan istifadə edilir ki, bu da kifayət qədər məsrəf tutumlu olur. Müasir tələblərə cavab verən, innovatik avadanlıq və laboratoriyaya

məxsus müəssisələrin formalaşdırılması potensial xarici bazarlara sertifikatlaşdırılmış yüksək keyfiyyətli məhsul ixracını təmin edəcəkdir.

İqtisadi rayonun yüngül sənayesi dedikdə, ilk əvvəl ipəkçilik yada düşür. Digər ixtisaslaşma istiqamətləri kimi tekstil, toxuculuq, mebel, gül yağı, yuyucu vasitələr istehsalı üzrə müəssisələr fəaliyyət göstərir.

**Cədvəl 2.**

**"Azəripək" MMC-nin 2019-2023-cü illər üzrə texniki-iqtisadi göstəriciləri[8]**

| Məzmunu | Ölçü vahidi | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Ümumi məhsul istehsalı | min manat | 3282 | 2892 | 3040 | 4820 | 5668 |
| Məşğul əhalinin orta siyahı sayı | nəfər | 417 | 319 | 298 | 304 | 297 |
| Əmək məhsuldarlığı | manat | 7870 | 9066 | 10201 | 15855 | 19084 |
| Texnika və avadanlığının orta dəyəri | min manat | 878 | 1178 | 3453 | 3576 | 3503 |
| Orta aylıq əmək haqqı | manat | 243 | 338 | 403 | 451 | 513 |

Azəripək" MMC gəlirlərini artırmaq üçün böyük bir potensiala sahib deyildir. Belə ki, 2020-ci ildə paylanılmış 20 000 qutu ipək qurdundan 800 ton məhsul tədarükü gözlənirdisə, nəticədə tədarük 446 ton olmuşdur. Müəssisənin 2019-2020-ci illərdə istehsal həcminə baxdıqda da geriləmə müşahidə edilməkdədir (Cədvəl 2). Gözlənilən nəticə 2020-ci ilin sonuna ipəkqurdu istehsalının ötən illə müqayisədə 25%-dən artıq artması idisə, əksinə yaş barama tədarükü nəinki artmış, hətta 30% azalmışdır. Nəticədə müəssisədə 2020-ci ildə ümumi məhsul istehsalı əvvəlki illə müqayisədə 22% azalaraq 2892 min manat təşkil etmişdir.

Buna baxmayaraq əmək məhsuldarlığında 15% artım müşahidə edilməsi imkanlar və üstünlüklərdən səmərəli istifadə zərurətini ortaya

[8] *"Azəripək" MMC-dən əldə edilən məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

qoyur. 2023-cü ildə satış həcmi 2022-ci ilə nisbətən 251 min manat artaraq 4296 min manat təşkil etsə də, bu rəqəm 2021-ci il ilə müqayisədə 3385 min manat azalmışdır. Ümumi məhsul satışında ixracın payı isə 2021-ci ildə 6 842 min manat, 2022-ci ildə 2 893 min manat, 2023-cü ildə 3030 min manat təşkil etmişdir.

Müəssisənin mövcud texnologiya ilə fəaliyyəti məhsulun yüksək keyfiyyətdə olmamasına və xərclərin normadan artıq olmasına gəritib çıxarır. "Azəripək" MMC-də istehsal sahələrinin inkişaf etdirilməsi üçün bir sıra işlər görülməlidir. Avadanlıqlar təmir olunmalı və ya yenisi ilə əvəz edilməlidir.

Perspektiv ixtisaslaşma istiqaməti kimi Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının məhsuldarlıq (*Y1*), bir sentnerdən gələn mənfəət (*Y2*) və satılmış dənli bitkilərin rentabelliyinin (*Y3*) ekonometrik qiymətləndirilməsi üçün tələb edilən əsas iqtisadi göstəricilər cədvəl 3-də verilmişdir. Tədqiqatın bu hissəsində araşdırılan modellərin adekvatlığı nöqteyi-nəzərincə, Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerdən gələn mənfəətin, bir sentnerin maya dəyəri, bir sentnerə əmək məsrəfi, bir sentnerin satış qiyməti və bir manatlıq məhsulun həcmindən asılılığının ekonometrik qiymətləndirilməsi daha məqsədli hesab edilərək bu model reallaşdırılmışdır.

Beləliklə, Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerdən gələn mənfəətin , bir sentnerin maya dəyəri, bir sentnerə əmək məsrəfi, bir sentnerin satış qiyməti və bir manatlıq məhsulun həcmi arasındakı münasibətləri göstərən reqressiya tənliyi ümumi halda aşağıdakı kimi ifadə olunur:

$$Ln(Y2) = a0 + a1ln(X1) + a2ln(X2) + a3ln(X3) + \\ + a4ln(X4) + e \qquad (1)$$

Burada: *Y2* - bir sentnerdən gələn mənfəət, manat;

*X1* - bir sentnerin maya dəyəri, manat;

*X2* - bir sentnerə əmək məsrəfi, adam/saat;

*X3* -bir sentnerin satış qiyməti, manat;

*X4* -bir manatlıq məhsulun həcmi, kq;

*a0, a1, a2, a3, a4* - əmsallar;

e - təsadüfi həddir.

Təqdim olunan modelin ekonometrik qiymətləndirilməsi 2015-2022-ci illəri əhatə edən zaman intervallarında həyata keçirilmişdir (cədvəl 3).

**Cədvəl 3.**

**Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının əsas iqtisadi göstəriciləri**[9]

| s/s | İllər | Bir sentnerin maya dəyəri (manat) | Bir sentnerə əmək məsrəfi (adam/saat) | Bir sentnerin satış qiyməti (manat) | Bir manatlıq məhsulun həcmi (kq) | Məhsuldarlıq sent/ha | Bir sentnerdən gələn mənfəət (manat) | Satılmış dənli bitkilərin rentabelliyi (faiz) |
|---|---|---|---|---|---|---|---|---|
| | | X1 | X2 | X3 | X4 | Y1 | Y2 | Y3 |
| 1 | 2015 | 21.86 | 10.9 | 32.93 | 3.04 | 32.1 | 11.07 | 37.8 |
| 2 | 2016 | 26.10 | 11.0 | 36.21 | 2.76 | 32.1 | 10.11 | 33.8 |
| 3 | 2017 | 17.18 | 9.4 | 30.89 | 3.24 | 33.4 | 13.71 | 100.6 |
| 4 | 2018 | 15.09 | 9.5 | 33.97 | 2.94 | 34.7 | 18.88 | 59.6 |
| 5 | 2019 | 14.96 | 10.2 | 38.68 | 2.59 | 35.5 | 23.72 | 47.5 |
| 6 | 2020 | 14.79 | 8.3 | 32.48 | 2.86 | 34.1 | 17.69 | 51.4 |
| 7 | 2021 | 16.31 | 9.4 | 38.48 | 2.60 | 33.8 | 22.17 | 72.1 |
| 8 | 2022 | 18.69 | 8.4 | 47.05 | 2.13 | 29.2 | 28.36 | 81.9 |

Beləliklə, Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerin maya dəyəri, bir sentnerə əmək məsrəfi, bir sentnerin satış qiyməti və bir manatlıq məhsulun həcminin bir sentnerdən gələn mənfəətə təsirinin EViews TPP-də ekonometrik qiymətləndirilməsi modeli umumi formada aşağıdakı kimi alınmışdır:

$$LOG(Y2)=C(1)+C(2)*LOG(X1)+C(3)*LOG(X2)+ +C(4)*LOG(X3)+C(5)*LOG(X4) \quad (2)$$

Nəticədə, qiymətləndirilən son model (şəkil1):

$$LOG(Y2)=-4,178797-1,225658*LOG(X1)-0,438199*LOG(X2)+ +2,915080*LOG(X3)+1,079178*LOG(X4) \quad (3)$$

Model vasitəsilə tapılan uyğun əmsalların səhv olub və ya olmaması ehtimalları qəbul edilən 90%, 95 % və 99%-lik əminliklə modelin adekvatlığını göstərir:

Prob: (0,0814) (0,0001) (0,0373) (0,0044) (0,0791)

[9] *Taxıl fondunun məlumatları əsasında tərtib edilmişdir.*

Uyğun əmsalların standart səhvləri:
Std.Error: (1,616229) (0,048367) (0,122456) (0,374414) (0,412243)
R-squared=0,998792; Adjusted R-squared=0,997182
Durbin-Watson stat =1, 889957
Dependent Variable: LOG(Y2)
Method: Least Squares
Date: 11/03/24 Time: 22:04
Sample: 2015 2022

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| C | -4.178797 | 1.616229 | -2.585522 | 0.0814 |
| LOG(X1) | -1.225658 | 0.048367 | -25.34093 | 0.0001 |
| LOG(X2) | -0.438199 | 0.122456 | -3.578430 | 0.0373 |
| LOG(X3) | 2.915080 | 0.374414 | 7.785709 | 0.0044 |
| LOG(X4) | 1.079178 | 0.412243 | 2.617822 | 0.0791 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.998792 | Mean dependent var | 2.844629 |
| Adjusted R-squared | 0.997182 | S.D. dependent var | 0.369414 |
| S.E. of regression | 0.019609 | Akaike info criterion | -4.756477 |
| Sum squared resid | 0.001154 | Schwarz criterion | -4.706826 |
| Log likelihood | 24.02591 | Hannan-Quinn criter. | -5.091353 |
| F-statistic | 620.3351 | Durbin-Watson stat | 1.889957 |
| Prob(F-statistic) | 0.000105 | | |

Included observations: 8

**Şəkil 1. 2015-2022-ci illərdə Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerdən gələn mənfəətin EViews TPP-də ekonometrik qiymətləndirilməsi modelinin əsas göstəriciləri**

(3) reqressiya tənliyinin əldə edilmiş uyğun parametrlərinin altında mötərizə işarəsi içərisində yazılan rəqəmlərdən: Prob - reqresiya tənliyindən alınmış əmsalların hansı dərəcədə doğru olduğunu sübut edir. Std.Error - parametrlərin standart səhvini (SS); R-squared ($R^2$) - determinasiya əmsalını; Adjusted R-squared ($R^2$ads) - dəqiqləşdirilmiş determinasiya əmsalını; Durbin-Watson (DW) – Darbin Vatson statistikasını göstərir (şəkil 1).

(1)-(3) reqressiya tənliyi ilə ifadə olunan modelin EViews TPP-də qiymətləndirilməsinin əsas nəticələri şəkil 1-də verilmişdir.

Modelin bütövlükdə adekvatlığını göstərən göstəricilər, heteroskedastiklik, avtokorrelyasiya, stasionarlıq, normallıq testləri və onların qiymətləndirmə nəticələri əlavələrdə verilmişdir.

(3) ekonometrik modelin şəkil 1 və əlavələrdə verilən statistik xarakteristikaları göstərir ki, alınan model kifayət qədər adekvatdır.

Deməli, nəticə olaraq qeyd etmək olar ki, Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerinin maya dəyərinin 1 % artması, bir sentnerdən gələn mənfəətə 1,23% mənfi, (yəni 1,23% azalma), bir sentnerə əmək məsrəfinin 1 % artması, bir sentnerdən gələn mənfəətə 0,44% mənfi (yəni 0,44% azalma), bir sentnerin satış qiymətinin 1 % artması , bir sentnerdən gələn mənfəətə 2,92% müsbət (yəni 2,92% artma) və nəhayət bir manatlıq məhsulun həcminin 1 % artımı, bir sentnerdən gələn mənfəətə 1,08% müsbət (1,08% artma) təsir göstərir. Bu nəticəni həmçinin baxılan dövrlər ərzində uyğun göstəricilərin modeldən ən kiçik kvadratlar üsulu ilə alınan uyğun əmsallarının elastiklik əmsalları (1,225658; 0,438199; 2,915080 və 1,079178-ə bərabər olması) da göstərir.




**Qrafik 3. 2015-2022-ci illərdə Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerdən gələn mənfəətin ekonometrik qiymətləndirilməsi modelindən alınmış qiymətlərlə faktiki qiymətlərin fərqinin dinamikası**

(3) modelindən alınan qiymətlərlə (Fitted) bir sentnerdən gələn mənfəətin faktiki - həqiqi (Actual) qiymətləri arasında fərq xeyli

kiçikdir. Onların əyriləri qrafikdə göstərildiyi kimi bir-birinə çox yaxındır (yaşıl və qırmızı rəngdə olan əyriər). Bu fərqin və həmçinin onlar arasındakı qalıqların (Residual) alınması qrafikdə 3-də verilmişdir.

Beləliklə, tədqiqatda reallaşdırılan ekonometrik model Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerinin maya dəyərinin, bir sentnerə əmək məsrəfinin, bir sentnerin satış qiymətinin və nəhayət bir manatlıq məhsulun həcminin bir sentnerdən gələn mənfəətə əhəmiyyətli təsirini bir daha sübut etdi.

Əgər yeni-texnika və texnologiyaya, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına müəyyən investisiyalar yönələrsə, əmək məsrəfləri aşağı düşər, bunun da əsasında daha məhsuldar işləməklə, yüksək mənfəət səviyyəsi müşahidə oluna bilər. Bu zaman Kanada təcrübəsindən istifadə etmək olar. Belə ki, Kanada məhdud əkin sahələri və əlverişsiz iqlim şərtlərinə baxmayaraq dünyada ilk sıralarda gedən taxıl istehsalçıları və tədarükçüləri arasında yer almaqdadır. Bunun da əsas səbəbi insan kapitalının düzgün istifadəsi, texnoloji bazanın təkmilləşdirilməsi, məhsuldar kənd təsərrüfatı tədbiqlərinin istifadəsidir.

Tədqiqat işində turizm müəssislərinin fəaliyyət istiqamətlərinin araşdırılması ilə belə nəticəyə gəlmək olar ki, turizmin mövsümi xarakterindən daimi xarakterə keçirilməsi vacibdir. Hazırda region müəssisələrinin ənənəvi fəaliyyət istiqamətlərindən olan turizmin inkişafı lazımi səviyyədə deyildir. Turizm sahəsində xidmət göstərən mövcud obyektlərdə xidmət səviyyəsinin aşağı olmasını nəzərə alaraq bu sahədə xidmət edən şəxslərin təcrübəsizliyi və bu çatışmazlığın aradan qaldırılması məqsədilə zəruri işlər aparılmalıdır. Turizmin inkişafına dəstək verilməsi üçün regiona daxil olan rayonların tarixi abidələri, turist üçün maraqlı olan digər rekreasiya obyektləri haqqında ətraflı məlumata malik, xarici dil bilikləri və digər zəruri keyfiyyətləri olan bələdçilərin hazırlanmasına diqqət yönəldilməlidir. Turizm qismən zəif inkişaf etmiş rayonların (Oğuz, Balakən, Zaqatala) turizm potensialını tanıtmaq məqsədi ilə sərgilər təşkil edilməli və bu sahəyə investisiya qoymaq istəyən sahibkarlara lazımi dəstək göstərməlidir. Xüsusilə üç ulduz standartlarına cavab verən otel servis xidmətlərinin sayı azdır, regiona səfər etmək istəyən orta təbəqəli turistlər üçün münasib şərait yoxdur.

Bunu nəzərə alaraq, bazarda mövcud boşluğun aktiv marketinq fəaliyyəti ilə araşdırılaraq yeni otellər tikilməlidir.

**"Şəki-Zaqatala regionu müəssisələrinin ixtisaslaşmasının perspektiv inkişaf istiqamətləri" adlı** üçüncü fəsildə regionda birgə müəssisələrin yaradılmasının üstünlükləri və region müəssisələrinin ənənəvi və yeni ixtisaslaşma sahələrinin inkişaf perspektivləri nəzərdən keçirilmişdir.

Yerli bazarların inkişafı, xərclərin ixtisara salınmasına, o cümlədən də, ixtisaslaşma səviyyəsinin artımına qarşı tələblərin artması, sərbəst iqtisadi zonaların əmələ gəlməsi və bir çox digər səbəblər iqtisadi məkanda təsərrüfat birliklərinin təsirinin artmasına gətirib çıxarır və bu da əksər hallarda həm ölkənin daxilində, həm də, onun hüdudlarından kənarda konkret regionun çərçivələrindən kənara çıxır. Şirkətlər müəyyən yaxın ərazidə yerləşərək, və daima qarşılıqlı fəaliyyətdə olaraq müəyyən regionlarda ərazinin kompleksli inkişafı vəziyyətində olmuşdur. Bir elementin (şirkət, təşkilat, müəssisə və sairə) digərinin fəaliyyətini tamamladığı təsərrüfat birlikləri sənaye qrupları kimi regionların uzunmüddətli və davamlı inkişafı üçün zəruridir.

Təsərrüfat birliklərinin formalaşması zamanı yeni avadanlıqların və texnologiyaların tətbiqinə xüsusi diqqət yetirmək, resurslar nöqteyi-nəzərindən məkan aspektini (təbii-iqlim, coğrafi xüsusiyyətlər), regionun səciyyəvi xüsusiyyətlərini nəzərə almaq və uzunmüddətli perspektivdə onların fəaliyyətinin effektivliyini hesablamaq lazımdır. İlk növbədə, regionun maraqlarını, onların sosial-iqtisadi istiqamətini, ixtisaslaşmanı nəzərə almaqla nomativ-hüquqi bazanı formalaşdırmaq, milli maraqlar və təhlükəsizlik nöqteyi-nəzərindən təsərrüfat birliklərinin optimal yerini təyin etmək vacibdir. Bu xüsusiyyəti nəzərə alaraq, təsərrüfat birlikləri xidmət göstərən və yekun istehlak məhsulunu istehsal edən şirkətlərdən, istehsal amillərinin tədarükçülərindən, detallardan, servis xidmətlərindən başlayaraq xüsusi tədrisi, informasiyanın toplanmasını, tədqiqatların keçirilməsini təmin edən maliyyə institutlarına, hökumət və özəl təşkilatlara qədər müxtəlif formalara malik olacaqdır. [10]

---

[10]*Əliyeva, Ş.İ. Şəki-Zaqatala regionu müəssisələrinin klaster tipli quruluşunun üstünlükləri, nəqliyyat-tranzit sektorunun regionun sosial-iqtisadi infrastrukturunun inkişafında rolu// Azərbaycanın tranzit potensıalının iqtisadi inkişafda rolu.R espublika elmi konfransın materialları, - Sumqayıt: SDU, - 2020, №6, s. 318-321*

Təsərrüfat birliklərinin optimal qaydada yerləşməsi eyni zamanda, regionun uzunmüddətli inkişafını və milli sosial-iqtisadi problemlərin həllini təmin edir. Güclü müəssisələr təsərrüfat birliklərinin nüvəsini təşkil etməklə öz ətrafında çoxlu sayda kiçik və orta müəssisələr toplayır və bununla da, müəyyən ərazidə rəqabəti qoruyub saxlayır. Nəzərə almaq lazımdır ki, təsərrüfat birliklərində rəqabət və kooperasiyanın mürəkkəb kombinasiyası formalaşır. [11]

Kənd təsərrüfatı istehsalının ciddi dərəcədə parçalanmasının qarşısının alınması üçün xırda fermərlərin fəaliyyətləri birləşdirilməli, kooperativlər və istehsalçı birlikləri yaradılmalıdır. Bu da öz növbəsində rəqabətliliyi artırar və yerli və xarici bazarlara çıxışı asanlaşdırar.

Regionda mövcud olan məhdudlaşdırıcı çətinliklər iqtisadi cəhətdən zəifliyə gətirib çıxarır ki, bu da yerli və xarici bazarlarda qeyri-əlverişli rəqabətə səbəb olur. Maşın və texnikanın köhnəlməsi, istehsal metodlarının keçmiş qaydayla tətbiq olunması, gübrələrdən düzgün istifadə edilməməsi, əkilmə prosesində yanlışlıqlar məhsuldarlığı aşağı salır. Sahibkarlar ən son menecment trendlərindən xəbərsizdilər və bu baxımdan onların əməkdaşlığı əlverişsiz olur. Buna görə də regionda ağılı ixtisaslaşma, əsl effektiv araşdırma və innovatik investisiyalar üçün vacibdir. Ağıllı ixtisaslaşma hər bir ölkə və regionun öz unikal xüsusiyyətlərinin və aktivlərinin tapılması, hər regionun rəqabətli üstünlüklərinin qeyd edilməsi və regional tərəfdaşlar və resursların gələcək üçün hədəflər ətrafında toplanması deməkdir. Bu həmçinin, regional innovasiya sistemlərinin gücləndirilməsi, bilik axınının artırılması və innovasiyalardan olan faydaların bütün region iqtisadiyyatına yayılmasıdır.

Hazırda kənd təsərrüfatında fəaliyyət göstərən müəssisələr hələlik intensiv istehsala keçəcək bir struktur dəyişikliyinə sahib deyildir. Bu baxımdan iqtisadi rayonda mövcud potensialdan lazımi səviyyədə istifadə edilə bilmək üçün istehsal texnologiyası müasirləşdirilməlidir. Təkmilləşdirilən texnologiyadan kənd təsərrüfatında istifadə edilməklə

---

[11] *Назаров, П.В.Форми-ро вние фундамента долгосрочного перспективыного регионального развития / П.В. Назаров, А.А. Горбунов // Регион: политика, экономика,социология. – 2009. – No 1–2. с.92*

məhsuldarlıqda və istehsalda müntəzəm artımları təmin etmək yoluna gedilməkdədir. Əkinə yararlı ərazi sahəsinin çox olması öz-özlüyündə bir region üçün müqayisəli üstünlük qazandırmaya bilər. Çünki burada vacib olan istehsal miqdarıdır. Bu da ancaq yuxarıda qeyd etdiyimiz kimi maksimum modern texnologiyanın tətbiqi ilə mümkündür. Hazırda dünyada məhsuldarlıq səviyyəsi müəyyən bir nöqtədən sonra istifadə edilən texnologiyanın bir göstəricisi kimi qəbul edilməkdədir.

Taxılçılıq təsərrüfatlarının fəaliyyəti genişlənsə də biçin vaxtı texnikaların azlığı regionda bu günə kimi həll edilməmiş problem kimi qalmaqdadır. Kənd təsərrüfatı müəssisələri, fermerlər biçin vaxtı texnikaların çatışmaması səbəbli müxtəlif problemlərlə rastlaşırlar. Belə ki, texnikaların azlığı sahələrdə məhsul itkisinə, nəticədə də təsərrüfatçıların haqlı narazılığına səbəb olur. Həmçinin, şitillərin sahələrə köçürülməsi zamanı əl əməyindən istifadə məhsulun əmək tutumunu və son nəticədə istehsala çəkilən xərcləri artırır. Bunu nəzərə alaraq kənd təsərrüfatı texnikalarının (taxılbiçən kombayn, tütün şitili basdıran aqreqat və s.) rayona verilməsinə köməklik göstərilməli və ya lizinq xidmətlərinin təklifi üzrə ixtisaslaşmış yeni müəssisələr yaradılmalıdır.

Texnika və texnoloji yenilikləri müəssisələrə tətbiq etmək müasir dövrün əsas tələbi hesab olunursa, deməli bu texnologiyadan istifadə etmək üçün xüsusi peşə bacarıqlarına malik ixtisaslı kadrlara böyük ehtiyac vardır. Bu baxımdan, çoxsaylı funksiyalarla zəngin yeni texnikaların tətbiq edilməsi üçün ilk növbədə kadr potensialını yeniləşdirmək və yüksək qabiliyyətli peşə ixtisasına malik şəxsləri cəlb etmək lazımdır. Odur ki, regionda peşə hazırlığına, orta ixtisaslı kadr hazırlığına ciddi fikir verilməli, ali təhsilli, yüksək ixtisaslı kadrların hazırlanması ilə bərabər orta ixtisaslı mütəxəssislər də yetişdirilməlidir.

Şəki-Zaqatala regionunda fəaliyyət göstərən müəssisələrin iqtisadi potensialının araşdırdığımız zaman məlum oldu ki, burada həm ənənəvi sahələrin, həm də yeni fəaliyyət sahələrinin inkişafı üçün çox böyük potensial mövcuddur. Bu potensialdan səmərəli və düzgün şəkildə istifadə edilərək müəssisələrin rentabelliyini, rəqabət qabiliyyətini daha da artırmaq mümkündür. Aparılan təhlillərdən də göründüyü kimi, regiona daxil olan hər bir rayonun spesifik xüsusiyyətlərindən asılı olaraq müəssisələrin də inkişaf istiqamətləri

fərqlidir. Belə ki, Şəki rayonunda taxılçılıq təsərrüfatları və turizm müəssiələrinin sayı artmaqdadırsa, Balakən və Zaqatala rayonlarında fəaliyyət göstərən müəssisələr daha çox fındıq istehsalı və ixracı üzrə ixtisaslaşmışdır. Qəbələ rayonunda isə yeyinti sənayesi üzrə ixtisaslaşmış müəssisələr üstünlük təşkil edir. Buna baxmayaraq regionun potensialından istifadə hələ də lazımi səviyyədə deyildir. Hər bir rayonun coğrafi, iqtisadi potensialını araşdırdığımız zaman məlum olur ki, nisbətən diqqətdən kənar qalan sahələr inkişaf etdirilməli və daha yeni sahələrdə müəssisələr yaradılmalıdır.

Məhz mövcud müəssisələrin bir-biri ilə səbəb nəticə asılılığını nəzərə alaraq yaşıl iqtisadiyyata əsaslanan innovativ kənd təsərrüfatı sektorunun inkişafı, bölgələrə xas məhsulların (fındıq, gül, çay, arı məhsulları) yetişdirilməsi və emalı əsasında ekoloji cəhətdən davamlı istehsal, aqrar emal təşəbbüskarlığının təşviqi, dairəvi iqtisadiyyat prinsiplərini tətbiq edərək davamlı inkişafın tətbiqi, yenilikçi və üzvi becərmə metodlarını tətbiq edərək ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarının istehsalının dəstəklənməsi innovasiya və yeni bacarıqlar əsasında aqrar sənayenin inkişafına da öz töhfəsini verəcəkdir. Digər tərəfdən iqtisadi rayonun dayanıqlı sosial-iqtisadi sektoru kimi turizmin inkişafı təşviq edilməli, rayona xas turizm məhsulları - həm turistlər, həm də yerli sakinlər üçün kənd turizmi, mədəniyyət və eko-turizm sektoru inkişaf etdirilməlidir.

## NƏTİCƏ

Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi rayonunda müəssisələrin ənənəvi və perspektiv ixtisaslaşma istiqamətləri tədqiqatı işsizliyin azaldılmasına və regional bərabərsizliklərin aradan qaldırılmasına gətirib çıxaran davamlı iqtisadi inkişaf formalaşdırmaq üçün ən böyük potensiala sahib olan prioritet sahələrin və tədbirlərin müəyyən edilməsinə yönəldilmişdir və müasir tələblər baxımından aşağıdakı nəticə və təkliflərlə yekunlaşdırmaq olar:

- Regionda müəssisələrin iqtisadi inkişafı vəhdət təşkil etdiyindən ayrılıqda kənd təsərrüfatı, sənaye və ya xidmət müəssisələrinin inkişafından söhbət açmaq qeyri-mümkündür.

Regionun kənd təsərrüfatı və sənaye müəssisələri bir-birinə səbəb-nəticə əlaqələri ilə bağlıdır.

- Sənaye müəssisələrində məhsulların ixrac potensialının gücləndirilməsi üçün müəssisələrin xammalla təmin etmə səviyyəsini yüksəltmək, istehsal edilən məhsulun nəinki həcmini, eləcə də keyfiyyətini artırmaq, istehsal olunmuş məhsulların müasir səviyyədə qablaşdırılmasının və daha səmərəli üsullarla satışının təşkil edilməsinin dəstəklənməsi vacibdir.

- Müəssisələrin yeni ixrac imkanlarının müəyyənləşdirilməsi, satış və məhsulların bazara yeridilməsi prosesinin daha səmərəli təşkili üçün tədarük, saxlama və satış sisteminin təkmilləşdirilərək logistik müəssisələrin yaradılması dəstəklənməlidir.

- Müəssisələrdə sürət və səmərəliliyin artırılması, istehsal xərclərinin azaltmaqda və istehsalın artırılmasında yüksək texnologiyaların rolunu nəzərə alaraq ekstensiv inkişafdan intensiv inkişafa keçmək üçün istehsal texnologiyasının müasirləşdirilməsi vacibdir.

- Şəki-Zaqatala iqtisadi rayonu üzrə dənli bitkilər istehsalının bir sentnerinin maya dəyərinin 1 % artması, bir sentnerdən gələn mənfəətə 1,23% mənfi, (yəni 1,23% azalma), bir sentnerə əmək məsrəfinin 1 % artması, bir sentnerdən gələn mənfəətə 0,44% mənfi (yəni 0,44% azalma), bir sentnerin satış qiymətinin 1 % artması , bir sentnerdən gələn mənfəətə 2,92% müsbət (yəni 2,92% artma) və nəhayət bir manatlıq məhsulun həcminin 1 % artımı, bir sentnerdən gələn mənfəətə 1,08% müsbət (1,08% artma) təsir göstərir. Kənd təsərrüfatının perspektiv sahəsi olan taxılçılıq üzrə modeldən də məlum olur ki, əmək məsrəfləri ilə mənfəət arasında yüksək tərs əlaqə vardır. Əgər yeni-texnika və texnologiyaya, yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına müəyyən investisiyalar yönələrsə, əmək məsrəfləri aşağı düşərək mənfəət artacaqdır.

- Regiona dair aparılan təhlillər, əhəmiyyətli qaynaqların müəyyən olunmasına gətirib çıxarmış və gələcəkdə regiona daxil olan rayonların yaşıl iqtisadiyyata əsaslanan innovativ kənd təsərrüfatı sektorunun və turizmin inkişafı sahəsində ixtisaslaşmasının məqsədəuyğun olduğunu təsdiqləmişdir.

Nəticədən irəli gələn **təkliflər** aşağıdakılardır:

- Kənd təsərrüfatında (taxılçılıq, meyvəçilik, fındıqçılıq, xurma istehsalı) intensiv metodların tətbiqi üçün iri təsərrüfatların rolu elmi cəhətdən əsaslandırılmış, könüllülük prinsipi əsasında birləşərək istehsal-satış-təchizat xarakterli koorporasiyaların formalaşdırılması, yararlı ehtiyat torpaq sahələri əsasında aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması məqsədəuyğun hesab edilir.

- Təsərrüfatçılar taxıl anbarı olmadığı üçün tədarük etdikləri məhsulu sahədən daha ucuz qiymətə satmaq məcburiyyətində qaldıqları üçün məhsul istehsalı və satışı prosesinin fasiləsizliyinin təmin edilməsi məqsədilə anbar təsərrüfatlarının yaradılması tövsiyə edilir.

- Balakən rayonunun qarğıdalı istehsalına görə respublikada ilk yerlərdən birini tutmasını, qarğıdalı yağı istehsalı müəssisəsinin tikintisi üçün xammal bazasının mövcudluğunu nəzərə alaraq bu sahənin emal sənayesinin formalaşdırılması məqsədəuyğundur.

- Əsaslı tikinti üçün xammal bazasına malik Kiş çayı yatağında mövcud çaydaşı və çınqılın istehsalını artıraraq ölkə bazarlarında satışının təşkili tövsiyə edilir.

- Ənənəvi şöhrətini, rentabelliyi və satış bazarının olmasını nəzərə alaraq Şəki rayonunun Zəyzid və Küngüt kəndlərində çəltik, Zaqatala rayonunda soya istehsalının artırılması məqsədəuyğundur.

- Quşçuluq və eləcə də heyvandarlıq müəssisələrinin heyvanların vitaminlərlə, mineral əlavələrlə, zənginləşdirilmiş qarışıq və qüvvəli yemlərlə yemləndirilməsinə olan ehtiyacı nəzərə alaraq regionda qüvvəli yem emalı müəssisəsinin yaradılması heyvandarlıq məhsullarının artırılmasında, xüsusən quşçuluğun inkişafında prioritet ola bilər.

- Qərzəkli meyvələrin yeni emal müəssisələrinin yaradılması tövsiyə edilir. Fındıq emalı müəssisələrinin rentabelliyinin yüksəldilməsi üçün keyfiyyətin qorunub saxlanılması vacibdir.

- Xurma məhsulun tərkibində zəngin maddələrin (yod və s.) olmasını nəzərə alaraq, daha səmərəli, o cümlədən tibb (əczaçılıq) sahəsində istifadəsinə şərait yaradacaq dərin emal imkanları üzrə araşdırmaların aparılması məqsədəuyğundur.

- Xaricdən gətirilən tinglərin müəssisələrə baha başa gəlməsini nəzərə alaraq ting idxalının azaldılması məqsədilə meyvə toxumları gətirilərək tinglik təsərrüfatlarının salınması məqsədəuyğundur.

- İntensiv bağçılığa üstünlük verilməsi və bağların sort tərkibinin ixrac yönümlü məhsul istehsalı istiqamətində dəyişdirilməsi və ya yeni bağların salınması zəruridir.

- Üzüm emalı müəssisələrinin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsində plantasiya-istehlakçı sxeminin reallaşdırılmasının vacibliyi əsaslandırılır. Regionda fəaliyyət göstərən şərab müəssisələrinin inkişafı və fəaliyyətinin stimullaşdırılması məqsədilə xammal bazası olan üzüm plantasiyalarının salınması məqsədəuyğundur.

- Xammal axının qarşısının alınması məqsədilə tütün emalı müəssislərinin dəstəklənməsi, onların inkişaf səviyyəsinin müasir meyarlar nöqteyi-nəzərində istənilən səviyyəyə çatdırılması vacibdir.

- Tütünçülük təsərrüfatlarında şitillərin sahələrə köçürülməsi zamanı məhsulun əmək tutumunun və son nəticədə istehsala çəkilən xərclərin azaldılmasının vacib şərti müasir texnika və texnoloji imkanların tətbiqini zəruri edir.

- Zaqatalada çay istehsalının ənənəvi vərdişlərinə əsaslanaraq mövcud çay plantasiyalarının genişləndirilməsi, son məhsul istehsalının təşkili və bu məqsədlə çay emalı müəssisəsinin tam gücü ilə işləməsi üçün dövlət dəstəyinin göstərilməsi məqsədəuyğundur.

- Dərman bitkiləri ehtiyatlarının mövcudluğunu nəzərə alaraq bu məhsulların emalının təşkili əhəmiyyətli gəlir gətirə bilər. Yabanı və dərman bitkilərinin tədarükü və emalı müəssisələrinin formalaşdırılması həmçinin ekoloji təmizliyi və maya dəyərinin aşağı olması ilə də seçilir.

- Şəki rayonunda qızıləhmədi növlü alma sahələrinin genişləndirilməsi, Şəkikənd ərazisində üzüm və çiyələk yetişən kəndlərdə suvarma işlərinin yaxşılaşdırılması, ixrac potensiallı məhsul istehsalına üstünlük verilməsi vacibdir. Rayonun Cumakənd ərazisində bostançılıq məhsullarının istehsalı üzrə ixtisaslaşan təsərrüfatlar prioritet sahə kimi dəyərləndirilməlidir.

- Tranzit əhəmiyyətli sərhəd rayonu olan Balakən rayonu, ixrac yönümlü faraş tərəvəzçiliyin inkişaf etdirilməsi və bu məqsədlə müasir tələblərə cavab verən istixanaların təşkilinə imkan verir.

- Bostan, tərəvəz, kartof, meyvə və üzüm məhsullarının saxlanılması üçün şəraitin yaradılması və bu baxımdan regionda iri tutumlu, müasir tələblərə cavab verən soyuducu və saxlama kameralarının inşası vacibdir. Belə ki, yaş məhsulların satışının vaxtında təmin edilməməsi səbəbindən istehsalçılara dəyən ziyanın minimuma endirilməsi üçün məhsulun tədarükü və daxili, həmçinin xarici bazarlarda satışının təşkili ilə bağlı dövlət səviyyəsində əsaslı tədbirlərin görülməsi məqsədəuyğundur. Regionda tədarük və saxlama kameralarının sayının artırılması mövsümdən sonra da məhsuldan yararlanmağın, istehsalçının bazar qiymətlərini izləyərək məhsulun münasib zamanlarda uyğun qiymətlərlə bazara yeridilməsinin, istehlakçının bazarlarda uzun müddət məhsul tapmasının, həmçinin emal müəssisələrinin fasiləsiz işləməsinin təminatçısı kimi çıxış etməsi faktını diqqətdə saxlamaq lazımdır.

- Mineral gübrələrin uzaqdan gətirilməsi maya dəyərinin artmasına səbəb olduğundan mineral gübrə istehsalı müəssisəsinin yaradılması məqsədəuyğundur.

- Regionda səmərəli ixtisaslaşma üçün klasterlərin formalaşdırılması, logistik mərkəzlərin yaradılması tövsiyə edilir.

- Prioritet ixtisaslasma zamanı iqlim dəyişikliyi nəzərə alınaraq kənd təsərrüfatının yeni şəraitə uyğunlaşdırılması və quraqlığa davamlı sortlardan istifadə mühüm amil kimi əsaslandırılmışdır.

- Həm iqtisadi, həm də strateji fəaliyyət sahəsi olan kənd təsərrüfatının sığortalanması, təbiət amillərinin təsirinin azaldılması, risklərin təminatçısı kimi çıxış edir. Bu baxımdan məhsul istehsalçılarının sığortalanması sisteminin formalaşdırılmasında Türkiyə təcrübəsinin tətbiqi məqsədəuyğundur.

- Dəyər zəncirinin formalaşdırılması, yeni bazarlara çıxış, istehsal texnologiyalarına dair təcrübə mübadiləsinin təmin edilməsi, aidiyyatı dövlət qurumları ilə müəssisələr arasında əməkdaşlığın təmini vacibdir.

- Aqroturizm və ov turizminin inkişafı əsaslandırılmış, turizm-əyləncə obyektlərinin, otellərin sayının artırılması və bu baxımdan Türkiyə təcrübəsinin tətbiqi tövsiyyə edilmişdir.

- Müəssisələrin elmi bazasını və kadr tərkibini təkmilləşdirmək məqsədilə ali təhsilli savadlı kadrların hazırlanması ilə yanaşı müasir texnikadan istifadə etmək bacarığına malik orta ixtisaslı savadlı mütəxəssislərin də hazırlığı qoyulan prioritetlərdəndir.

**Tədqiqatın əsas məzmunu müəllifin nəşr etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. Əliyeva Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunun sənaye strukturu // “İqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi yolları” mövzusunda respublika elmi konfransının materialları, Sumqayıt: SDU, - 17-18 oktyabr, - 2017, - s. 217-220
https://www.sdu.edu.az/az/conference_materials

2. Əliyeva Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının mövcud vəziyyəti və inkişaf meylləri // “İqtisadi təhlükəsizlik, mövcud vəziyyət və perspektivlər” mövzusunda Beynəlxalq Elmi Konfransın materialları, - Sumqayıt: SDU, - 2-3 may, - 2018, s.170-172
https://www.sdu.edu.az/userfiles/file/conferences/ıq_konfrans_mater%c4%b0alları.pdf

3. Əliyeva Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunda turizmin perspektiv inkişaf istiqamətləri // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, - Bakı: Azərbaycan Dövlət Pedoqoji Universiteti, - 22-23 noyabr, - 2018. I cild, - s. 289-291

4. Алиева Ш.И. Основные направления специализации предприятии региона Шеки-Закатала Азербайджана в современных условиях // Philadelphia, USA: İnternational Scientific Journal Theoretical&Applied Science, - 2018. №3 (59) - s. 281-289
https://elibrary.ru/item.asp?id=32775474

5. Əliyeva Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunda fındıq istehsalı və emalının perspektivləri // Bakı: Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun elmi əsərləri, - 2018. №1 - s. 85-88

6. Əliyeva Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunda tekstil sənayesinin mövcud vəziyyəti və inkişaf perspektivləri // Bakı:

“Azərittifaq” Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya elmi-praktiki jurnalı, - 2019. №3 (54), - s. 95-99
http://www.kooperasiya-journal.az/wp-content/uploads/2022/02/3-2019.pdf

7. Əliyeva Ş.İ. Şəki-Zaqatala regionu müəssisələrinin ixtisaslaşmasında dövlət proqramlarının rolu // Bakı: BDU, Bakı Dövlət Universitetinin İqtisadi və Siyasi elmlər Jurnalı, - 2019. №4 (17), - s. 8-19
https://journal.maarif.az/wp-content/uploads/2020/03/Jurnal-4-17-2019.pdf

8. Əliyeva Ş.İ.Şəki-Zaqatala regionunda müəssisələrin fəaliyyətinə təsir edən amillər-makromühit // Bakı: «İpək yolu» jurnalı, Azərbaycan universitetinin elmi jurnalı, - 2019. №4, - s. 32-39
https://www.au.edu.az/uploadiles/menu/ipekyolu/2019_4/3_EliyevaSh.pdf

9. Алиева Ш. И. Продовольственная безопасность и развитие сельского хозяйства в Шеки-Закатальском регионе// Актуальные проблемы обеспечения экономической безопасности государства, регионов, предприятий, Сборник научных статей III Международной научно-практической конференции. - Уфа: Издательство УГНТУ, - 29 may, - 2019, s. 3-5
https://elibrary.ru/item.asp?id=41156188

10. Алиева Ш. И. Основные направления развития традиционных и перспективных отраслей экономики в Шеки-Закатальском регионе Азербайджана // Тольятти: Институт направленного профессионального образования Азимут научных исследований. Том 9, №1 (30), - 2020, - s. 37-41
https://elibrary.ru/item.asp?id=42572180

11. Alieva Sh.I. Assessment of tourısm development ın Shekı-Zagatala economıc dıstrıct // France Los Angeles, USA: Association 1901 "SEPIKE" Social Educational Project of Improving Knowledge in Economics Journal SEPIKE Edition 26 Frankfurt, Deutschland Poitiers, - 2020, s. 4-14
http://dspace.snu.edu.ua:8080/jspui/bitstream/123456789/3239/1/%D0%9C%D0%BE%D1%80%D0%B3%D0%B0%D1%87%D0%BE%D0%B211.pdf

12. Əliyeva Ş.İ. Şəki-Zaqatala iqtisadi rayonunda taxılçılığın mövcud vəziyyəti və inkişafı // Dedicated to the 97_Anniversary of the

National Leader of Azerbaijan, Heydar Aliyev IV ınternatıonal scıentıfic conference of Young researchers Baku engıneerıng unıversıty, - Baku: Azerbaıjan Proceedıngs, -2020, - s. 556-560
http://yric.az/books-2020/Section_3.pdf
13. Алиева Ш.И. Предприятия специализирующееся на переработке фруктов и овощей в Шеки-Закатальском экономическом районе // Современные средства связи материалы XXV международной научно-технической конференции, - Минск: Белорусская Государственная Академия связи, -2020, -s. 249-250
http://bsac.by/pages/xxvi-mezdunarodnaa-naucno-tehniceskaa-konferencia-sovremennye-sredstva-svazi
14. Əliyeva Ş.İ.Şəki-Zaqatala regionunda heyvandarlığın mövcud vəziyyəti və inkişaf perspektivləri // Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illik yubileyinə həsr edilmiş gənc tədqiqatçı və doktorantların onlayn elmi konfransın materialları, - Bakı: - 7-8 May, - 2020, s. 997-1001
15. Əliyeva Ş.İ. Şəki-Zaqatala regionunda peşə-ixtisas təhsili müəssisələrinin mövcud vəziyyəti və inkişafı // İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər. Beynəlxalq elmi konfransın materialları, - Sumqayıt: SDU, - 8-9 iyul, - 2020. №4, - s. 327-329
https://www.ssu-conferenceproceedings.edu.az/pdf/iqtisadiyyat.pdf
16. Əliyeva Ş.İ.Şəki-Zaqatala regionu müəssisələrinin klaster tipli quruluşunun üstünlükləri, nəqliyyat-tranzit sektorunun regionun sosial-iqtisadi infrastrukturunun inkişafında rolu // Azərbaycanın tranzit potensıalının iqtisadi inkişafda rolu respublika elmi konfransın materialları, - Sumqayıt: SDU, - 2020. №6, - s.318-320
https://www.ssu-conferenceproceedings.edu.az/pdf/iqtisadiyyat-2.pdf
17. Əliyeva Ş.İ. Region müəssisələrinin ixtisaslaşma sahələrinin inkişaf istiqamətləri (Şəki-Zaqatala regionu timsalında), // - Sumqayıt: Sumqayıt Dövlət Universitetinin Elmi Xəbərləri, Sosial və humanitar elmlər bölməsi, - 2021. Cild 17, №1 - s. 74-77
https://elibrary.ru/item.asp?id=46202332
18. Əliyeva Ş.İ. Regionda əlverişli biznes mühitin formalaşması iqtisadi siyasətin prioriteti kimi // ADNSU-nun 100 illik yubileyinə həsr olunmuş "Postkonflikt vəziyyətlərdə yenidənqurma və bərpa" mövzusunda beynəlxalq konfransın materialları, - Bakı: ADNSU, - 25-26 fevral, - 2021, - s. 290-297

19. Əliyeva Ş.İ. Regionda arıçılığın inkişaf aspektləri (Şəki-Zaqatala regionu timsalında) // "Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər" mövzusunda Respublika elmi konfransının materialları, - Sumqayıt: SDU, - 22-23 aprel, - 2021, - s. 55-59

20. Əliyeva Ş.İ. Şəki-Zaqatala regionunun iqtisadiyyatinin kompleks inkişaf xüsusiyyətləri // VIII Internatıonal Research Symposıum On The Turkıc World, - Niğde: - 2-5 iyun, - 2021. Cild II, - s. 591-598
https://drive.google.com/file/d/1dtbIfyPYQXHSbePwlr9zeCUMktZDcr8F/view

21. Алиева Ш. И. Преимущества и недостатки дистанционного обучения в региональных вузах в условиях пандемии (на примере Шеки-Закатальского экономического района) // Материалы Международная научная интернет-конференция «Universe of university» Екатеринбург: Уральский институт управления – филиал Российской академии народного хозяйства и государственной службы при Президенте Российской Федерации, - 18 may, - 2021, - s. 9-12
https://elibrary.ru/item.asp?id=46693536

22. Əliyeva Ş.İ. Şəki-Zaqatala regionunda müəssisələrin kənd təsərrüfatı üzrə ixtisaslaşma səmərəliliyinin qiymətləndirilməsi// Bakı: Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, İqtisadi Artım və İctimai Rifah, - 2022. №1 - s. 24-40

23. Alieva Sh.I., Gasimova Z.M., Aliyeva S.Y.,Kocharli H.R. Evaluation of theactivities of agricultural products processing enterprises in Azerbaijan and directions of their development//Alfred Nobel University, -Academy review, -2025, №2(63),- səh 264-277
https://acadrev.duan.edu.ua/index.php/en/issues/157-2025-2/196-academy-review-2025-2-63

Dissertasiyanın müdafiəsi "31" oktyabr 2025-ci il tarixdə saat 14°°- da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.26 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1010, Bakı şəhəri, Azadlıq Prospekti 34

Dissertasiya ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rəsmi internet saytında (www.adnsu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat "01" oktyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.09.2025
Kağızın formatı: 60 x 84 1/16
Həcm: 44425
Tiraj: 100